Azərbaycan milli kitabxanası


# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №35-36 (1213-1214) 18 may 2024-cü il Qiymәti 1 manat

Qəzet 1999cu ilin oktyabrından çıxır


## *Akif MƏMMƏDOV - 70*

# VİCDAN MEYAR OLANDA

## *Unudulmaz dünyada hünər, dəyanət yolu, Lerikdən Qarabağa Akif - Sədaqət yolu*

### UNUDULMAZLIQ HAQQI

***Son günlər Akif haqqında çox düşünürdüm. Hətta qəzetdə onun "Seçilmiş əsərləri"nin təhlilinə həsr olunmuş yazı da nömrəyə qoyulmuşdu.***

***Bu gün səhər işə gələndə vaxtı ilə fb səhifəsində onun haqqında bəzi qeydləri yazmışdım. Daha doğrusu, ölümündən bir aydan da az əvvəl.***

***Yazını necə tapmağı (hətta sərlövhəsini alayarımçıq xatırlayırdım) düşünürdüm. Fb səhifəmi açdım, gözlərimə inanmadım. Akifin ayaq üstə portreti, mikrofonda danışan vəziyyətdə elə bil ki, məni qarşılayır, salamlayırdı. Sən demə, bu gün Akifin ad günü imiş. 71 yaşının tamam olduğu gün.***

***Akifdən sonra onun unudulmaz obrazı ən müxtəlif tərəflərdən məni düşündürüb. Bu günlərdə dərc olunan "Xəzanda yaz gülləri" adlı kitabıma da onunla bağlı bir poema-etüd yazıb daxil etmişəm.***

***Unudulmazların unudulmazlıq haqqını tanrı özü verir. Görünür, elə bu haqqın mistik gücü ilə Akif mənimlə, onu sevənlərlə, elmini, əməli fəaliyyətini yüksək qiymətləndirənlərlə görüşə gəlmişdi.***

***Bəli, social şəbəkə həmin yazını - 7 il bundan əvvəlki qeydləri Akifin ömrünün son günlərini yaşadığı dövrlərdə yazılmış qeydləri gündəmə gətirmişdi. İndi həmin qeydləri oxuculara təqdim edirəm.***

### VİCDAN MEYAR OLANDA

Əzizim Akif müəllim, sən çoxlarına əzizsən. Ancaq bizim evə, bizim ailəyə əzizlərin əzizi, doğmasısan. Çünki nəslimizin ən ləyaqətli övladlarından birinin- Anarın müəllimi olmusan və təkcə müəllimi olmamısan, həm də mənəvi atası olmusan.

Mən zaman keçdikcə Anarın şəxsiyyətində, təbiətində sənin müəllimlik izini, cizgilərini, yolunu görürəm və qürur duyuram. Mənim gənclik dostum, tələbəlik qardaşım, sən mənim qəlbimdə, ruhumda, varlığımdasan. Sənin ziyalılığınla, alimliyinlə, vicdanı meyar bilərək, yaz-



dıqlarınla, yaratdıqlarınla qürur duyuram.

Əziz dostum, özüm yaza bilməsəm də diktəmlə yazılanları dinləyən ailəmizin hər bir üzvü sənə salam göndərməyi, sənə hörmət və ehtiramlarını bildirməyi arzuladılar. Sənin şagirdin Anar - mənim oğlum Anar, sənin adınla həmişə fəxr edib, bu da məni sevindirir. Yaradıcılığını, elmi-ədəbi fəaliyyətini həmişə izləyirəm.

Mirzə Cəlil yolu ilə yazdığın felyetonların dadını duzunu da duyuram. Çox xahiş edirəm, fb- da yazdığın felyetonları bir yerə topla, üfürülüb havaya getməsin. Sənin hər bir yazında can yanğısı duyulur. Can yanğısı olan yerdə tarix var, əbədiyyət var, demək həm də ədəbiyyat var.

Sənin kimi ziyalılar millətin işığıdır. Rəngin anadangəlmə qara olduğuna baxma, ruhun işıqlıdır, sözün nurludur. Bir sözlə, mən və bütün ailəm sənin sədaqətli dostluğunu, böyük alimliyini, fədakar ziyalılığını yeni nəsillər üçün örnək bilmişik. Bütün ailəmiz sənin ad gününü təbrik edir.

Əziz dostum,sən filologiya elmləri doktoru, professorsan. Sənin elmi dərəcən, bu adlarla ölçülmür. Hər halda bu sənin indiki ziyalılıq rütbənin rəsmiyyətidir... Sən anadangəlmə sağlam təbiətinlə, saf ruhunla şəxsiyyətsən. Şəxsiyyət isə insanlığın ali kürsüsündə yeri olan kimsədir. Sən elə bir ziyalısan ki, millət üçün,- xalq üçün vacib olanı həyatının dəyəri bilirsən... İnanıram ki, qarabağlı qızı Sədaqət bacı ilə bir gün azad Qarabağın müqəddəs yerlərini gəzə biləcəksən. Oğlanlarına ailənizin Lerikdən və Füzulidən - vətənin ruhundan gələn duyğuları sözə çevirib danışacaqsan.

Əziz dostum, vicdan meyar olanda insan elə sənin kimi olar. Bir daha sənin ad gününü təbrik edirəm.

*Əli Rza XƏLƏFLİ*

**QEYD:** Əzizim, üzürlü hesab elə. Mən kompüter ekranının qabağına nadir hallarda gəlirəm. Əvəzimdən baxan nəvələrim hərdən mənə məlumat verir: bu gün mən təsadüfən ekranda sənin ad gününlə bağlı məlumatı oxudum. Məndən aslı olmadan qəlbim tirədi. Cəbrayıllı günlər yadıma düşdü. Səninlə Cəbrayıl Çinarlarının kölgəsi ilə getdiyim günlər.

*17.05.2017*

**QEYD:** Qəribədir. Bu gün Akifin ünvanı ilə bağlı qeydlər yenə mistik bir gücün təsiri altında gündəmə gəldi. Mənə elə gəlir ki, həyatımız bizdən kənar sarsılmaz bir mənəvi güc ilə idarə olunur.

Əziz dostum, həyat yoldaşın Sədaqət Qabilqızının, oğlun Fuadın və dostun Telman Vəlixanlının yaxından iştirakı ilə "Seçilmiş əsərləri"nin *(Bakı, "Mütərcim" nəşriyyatı, 2023, 436 səhifə)* nəşri işıq üzü görüb.

Sənin bu dünyada əbədi izin var. Yaşayan sözün var; gələcək nəsillərə çatası sözün.

*17.05.2024*

*Bax: səhifə 10-13*

# ALİM FƏDAKARLIĞI, ŞƏXSİYYƏT BÜTÖVLÜYÜ,

## *yaxud Akif Məmmədovun "Seçilmiş əsərləri"nə rəylər üzərində düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Əzəldən bağlıyam sözə... kitabla-rı-mın nəşrə hazırlanması zamanı ad haqqında xeyli düşünmüşdüm. Nəhayət, ədəbi düşüncələrdən ibarət beşcildliyimi "Əzəldən bağlıyam sözə" adı ilə çap etdirməli oldum. Çünki bu adın alt qatındakı mahiyyət mənim ruhuma, mənəvi dünyama çox doğmadır. İlk gəncliyimdən üzü bəri həyatım dəfələrlə qeyd etdiyim kimi sözlə, sənət adamları ilə bağlı olub. Hətta elə söz-sənət adamları olub ki, nəşriyyata təqdim olunan kitabları ilə bağlı müzakirələr zamanı mənim təklifimlə struktur dəyişikliyi olub. Kitabın adını məzmununa uyğun yeni variantda təklif etmişəm, müəlliflər də etiraz etməyiblər.

Demək, söz mənim üçün çox uzaq keçmişdən bəri ruhi qida mənbəyi kimi dəyər kəsb edib. Əməli fəaliyyətim zamanı görüşdüyüm, ədəbi mühitdə rastlaşdığım çoxlu sayda avtoqraflı kitabların sətirləri arasında mənə həsr olunmuş yazılar da az olmayıb. Beləliklə, bir də gözümü açıb görmüşəm ki, istəsəm də, sözdən kənarda qala bilmərəm.

Ədəbi-publisistik qeydlərlə, xüsusilə sosial həyatımızla bağlı məsələləri həmişə yazılarıma gətirməyə çalışmışam. Yəni, çətin olanı asan etmək üçün sözümü demişəm, təklifimi vermişəm. Əlbəttə, bu məzmunda yazılarımı da ayrıca bir kitab kimi düşünürəm. Ancaq böyük ədəbiyyatın ümumi axarında məzmunu varlığıma yaxın olan, bədii dəyərini uca tutduğum kitablar haqqında, səmimi dostluq münasibətində olduğum müəlliflər haqqında yazmağı da özümün ən üstün mənəvi borcum bilmişəm.

Doğrudur, daha çox nəşr etdiyim kitablar haqqında yazmağı daha vacib bilirdim. Çünki o kitabları iş prosesində diqqətlə oxuyurdum. Fikrən müəlliflərlə mübahisələr edirdim, qənaətlərimi xəyalən bölüşürdüm. Ona görə də kitab nəşr olunandan sonra yazmaq mənim üçün çətin deyildi, çünki artıq yazı mənim ruhumda hazır olurdu. Amma elə müəlliflər də var ki, onlarla elə də sıx təmasda olmamışam. Ancaq hansısa bir cəhətdən mənə yaxın olub.

Əslən Lerik rayonundan olan tanınmış dilçi alim Akif Məmmədovun bu günlərdə nəfis şəkildə çap olunmuş seçilmiş əsərlərini dostum Əli Rza Xələfli mənə verdi. Növbəti kitablarından birini məhz bu formatda çap etdirmək istəyirdi. Mən kitabı götürdüm, əlbəttə, birinci növbədə peşəmin təbiətinə uyğun olaraq poliqrafik səviyyəsini müşahidə etdim. Sözün həqiqi mənasında çox nəfis şəkildə çap olunmuş kitabı professor Telman Vəlixanlı, Sədaqət Qabil qızı Məmmədova və Gülnar Əhmədova tərtib etmişdilər. Elə ilk səhifəni çevirən kimi müəllifin 62-63 yaşında həyatdan getdiyini biləndə çox təəssüf etdim. Axı bizim Lerik uzunömürlülər diyarıdır. Akif kimi alimlər, yəni dilin saflığı uğrunda mübarizə aparan alimlər yaşamaqla dilimizə, mənəvi irsimizə çox böyük töhfələr verə bilərlər. İndi neyləmək olar? Akif müəllim həyatda yoxdur, ancaq qədir bilən insanlar onun irsini bir yerə toplayıb nəşr etməyi vacib hesab ediblər.

Məlumdur ki, hər bir kitab öz müəllifinin həyatda yaşayan abidəsidir. Bu mənada çox istedadlı alim Akif Məmmədovun seçilmiş əsərlərinin nəşri də onun adını, kimliyini yaşat-maq baxımından çox dəyərlidir.

İş burasındadır ki, hər bir müəllif öz sağlığında irsinin toplanılması, nəşri qayğısına qalmalıdır. Yəqin ki, müəlliflərin öz iştirakı ilə hazırlanan kitablar bir çox problemlərdən yan keçir. Amma neyləmək olar? Həyatın da öz tələbləri var və bu tələblərlə də barışmağa məcburuq. İndi Akif Məm-mədov yoxdur. Yazdıqları da ayrı-ayrı mətbu orqanların səhifələrinə payla-nıb. Belə vəziyyətdə tərtibçi ziyalı-ların hədsiz fədakarlığını təsəvvür etmək elə də çətin deyil. İndi kitabın nəfis tərtibatı, 436 səhifəlik mənəvi irsin ədəbi-mənəvi xəzinəmizə bəxş edilməsi onun yarımçıq qırılmış həyatı ilə bağlı acı təəssüratlarımıza bir təskinlik gətirir.

Kitabın annotasiyasında yazılır: *"Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Akif Məmmədovun 70 illiyi ərəfəsində çapa hazırlanmış "Seçilmiş əsərləri"nə onun tədris vəsaitləri, elmi-metodiki məqalələri, əməkdaşı olduğu "Azərbaycan dili və ədəbiyyatı tədrisi" ("Ana sözü") jurnalı üçün ayrı-ayrı dilçi, ədəbiyyatşünas və metodist alimlərdən götürdüyü müsahibələr, eləcə də ən aktual pedaqoji və metodiki problemlərə və ictimai məsələlərə aid bir neçə qəzet yazısı daxil edilib. Ana dili və ədəbiyyatın tədrisinin nəzəri və praktiki məsələlərinin araşdırılması və şərhi, mübahisəli məsələlərin gündəmdə saxlanılması nöqteyi-nəzərindən maraqlı polemika doğuran bu nəşr fənn müəllimləri, müvafiq ixtisas və ixtisaslaşmalar üzrə bakalavrlar, magistrantlar və doktorantlar üçün faydalı ola bilər".* Kifayət qədər dolğun məlumatdır. Bir çoxlarına elə gələ bilər ki, dilimizin tədrisi ilə bağlı bir çox problemlər artıq həll olunub. Baxmayaraq ki, bu sahədə böyük elmi tədqiqat institutları çalışır, amma yenə də dərsliklərimizdə çoxlu qüsurlar qalmaqdadır. A.Məmmədovun kitabını vərəqləyəndə birinci mənim diqqətimi cəlb edən bu oldu ki, bu fədakar alim demək olar ki, bütün həyatını dilimizin tədrisi ilə bağlı tədqiqata həsr edib. Ən başlıcası, dilimizin saflığı uğrunda yorulmadan mübarizə aparıb.

Əlbəttə, mən imkan düşdükcə onun bəzi məqalələri haqqında məlumat verməyə çalışacam. Amma bu yazımda əsas məqsəd kimi qarşıma qoyduğum budur ki, yeni nəsil yazarlara, tədqiqatçılara, yeni nəsil ədəbi-mənəvi mühitimizə A.-Məmmədovun həyatı haqqında dolğun məlumat verim. Bunun üçün əsas mənbə mənə görə elə kitabın əvvəlində verilmiş tərcümeyi-hal qeydləridir: *"Akif Güləli oğlu Məmmədov (1953-2017). 17 may 1953-cü ildə Lerik rayonunda anadan olmuşdur. 1970-ci ildə orta təhsilini başa vurub, 1971-1975-ci illər arasında V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Filologiya fakültəsində oxuyaraq oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1975-1981-ci illərdə Puşkin (indiki Biləsuvar) rayonunda ixtisası üzrə işləmişdir. 1981-1990-cı illərdə Bakıdakı Respublika internat-məktəbində müəllim, 1990-1991-ci illərdə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (İndiki Təhsil İnstitutu) professor Əziz Əfəndizadənin rəhbərlik etdiyi Azərbaycan dilinin tədrisi şöbəsində baş elmi işçi kimi çalışmışdır. 1991-ci ildən 2007-ci ilə kimi Təhsil Nazirliyinin "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında şöbə müdiri vəzifəsində çalışmışdır. 1987-ci ildə professor Bəşir Əhmədovun rəhbərliyi altında "Orfoqrafiya təlimində etimoloji təhlildən istifadə (V-VII siniflərin materialları əsasında)" adlı dissertasiya müdafiə edərək Azərbaycan dilinin tədrisi metodikası üzrə pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 1993-1995-ci illərdə "Futuroloq" Fasiləsiz Təhsil Kompleksində, 1993-2001-ci illərdə M.F.Axundov adına APRDƏİ-də (indiki Bakı Slavyan Universiteti) baş müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. 1991-1994-cü illərdə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda ixtisaslaşmış müdafiə şurasının üzvü olmuşdur.*

*1996-1998-ci illərdə "Mütərcim" jurnalında məsul katib və redaktor olmuşdur. 1995-ci ildən ömrünün sonuna kimi "Turan" liseyində (indi BSU-nun Məktəb-Lisey Kompleksi) bir müddət direktor müavini, sonralar Azərbaycan dili və ədəbiyyat müəllimi, fənn metodbirləşməsinin sədri, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri kimi fəaliyyət göstər-mişdir. 1992-ci ildən Bakı Pedaqofi Kadrların İxtisasartırma və Yenidən Hazırlanması İnstitutunda Azərbaycan dili müəllimlərinə mühazirələr oxumuşdur. 2007-ci ildən BSU-nun Müasir Azərbaycan dili kafedrasının dosenti olmuşdur".* Bu qısa xronikal qeydlər Akifin əməli fəaliyyətinin xronikasını göstərir. İllər dəyişir, iş yerləri dəyişir, amma eyni zamanda biz Akif Məmmədovu həm də bir alim kimi bu illər ərzində necə boy artımı yolu keçdiyini görürük.

Məlumdur ki, Azərbaycan dilinin tədqiqi sahəsində professor Bəşir Əhmədov fenomeni olub. Onu 70-80-ci illərdə ən fəal mübarizlərdən biri kimi tanıyırdıq. Belə bir alimin Akif Məmmədovun elmi rəhbəri olmasının da onun prinsipial alim formalaşmasında əvəzsiz təsiri olub.

Akif Məmmədov haqqında dostum Ə.R.Xələfli deyir: **"Biz Akiflə eyni vaxtda oxumuşuq. Yataqxana, auditoriyalar, müəllimlərimiz, bir sözlə, eyni zaman mühitimiz dövrün gəncləri kimi bizi çox doğmalaşdırmışdı. Akif təyinatla göndərildiyi Biləsuvar rayonunda pedaqoji fəaliyyətdən sonra mərkəzə qayıtdı. Çünki onun daxilində tədqiqat, yaradıcılıq istəyi vardı. Özü də istək onun təbiətində qarşısıalınmaz idi. Hələ aspirantura illərindən əvvəl Akif dövri mətbuatda əməli fəaliyyətində müşahidə etdiyi dil problemlərini şərh edən yazılarla ardıcıl olaraq çıxış edirdi. Onu da qeyd edim ki, gənclərin bir çoxu həyat çətinliklərinə dözmür, elmi tədqiqat işlərini yarımçıq buraxır-dılar. Amma A.Məmmədov tədqiqatçı olmaq istəyindən hər cür zəhmətlərə baxmayaraq geri çəkilmədi. Həyat sonralar bizi daha da doğmalaşdırdı. Mən onu Cəbrayılda da qarşıladım. Bakıda da ədəbi-mənəvi əlaqələrimiz daha da sıxlaşdı.**

***(Davamı 11-ci səhifədə)***

*Əvvəli 10-cu səhifədə*

# ALİM FƏDAKARLIĞI, ŞƏXSİYYƏT BÜTÖVLÜYÜ,

## *yaxud Akif Məmmədovun "Seçilmiş əsərləri"nə rəylər üzərində düşüncələr*

**Onun 60 illik yubileyini "Kredo" qəzetində xüsusi bir nömrə ilə ayrıca qeyd etdik. Bütün bunları ona görə sadalayıram ki, mən onu yaxşı tanıyırdım. Onun hədsiz dərəcədə kövrək və duyğusal qəlbi zəngin insanlıq aləmindən xəbər verirdi. Akif həm də mənim oğlum Anarın müəllimi olmuşdu. İndi Anar ondan aldığı dərslə qazandığı biliklərin və intellektin sayəsində bütün Avropanı və Asiya ölkələrini səyahət edib, gəzib. Deməк, Akifin ömrü həm də yetirmələrinin həyatında davam edir. Akif qarabağlı tələbə yoldaşımız Sədaqət Qabil qızı ilə ailə qurmuşdu. Ağıllı övladları var. Fuad və Nihad indi də mənimlə əlaqə saxlayırlar. 2017-ci ildə Akifin vaxtsız vəfatı mənim üçün çox ağır itki oldu".** Ə.R.Xələflinin bu düşüncələri çox ləyaqətli bir ömür yaşamış insanın həyat romanının sıxılmış səhifələridir. Bütöv məzmunla tanış olmaq üçün gərək zamanı geri qaytarasan, dövrü, mühiti gözlərinin önünə gətirə biləsən.

Məlumdur ki, 90-cı illər kəskin problemlər dövrü idi. Məhz o dövrdə də Akif insani keyfiyyətlərini ləyaqətlə qoruyub saxlayıb və dostlarına qarşı da çox səmimi olub. Bunu biz xatirə qeydlərdən də aydınca hiss edirik.

Akifin yaradıcılığı xüsusilə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı ilə bağlı olub. Məhz bu jurnal ona imkan verib ki, tədqiqatlarını vaxtlı-vaxtında nəşr etdirə bilsin. Onu da qeyd edək ki, A.Məmmədov mükəmməl bir redaktor kimi jurnalın tam sağlam ruhda çap olunmasına böyük əmək sərf edirdi. Bu barədə də xronikada kifayət qədər aydın məlumat var: *"Akif Məmmədov elmi yaradıcılığa 1987-ci ildə başlamışdır. Onun yaradıcılığı Azərbaycan dilçiliyi, Azərbaycan dilinin tədrisi metodikası və pedaqogika elmi ilə bağlıdır. Onlarla elmi-metodik məqalənin, bir neçə monoqrafiyanın, metodik vəsaitin, tövsiyənin müəllifi, "Mütərcim" nəşriyyatında uzun müddət çap olunan onlarla kitabın, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında 1992-2007-ci illərdə Azərbaycan dili və onun tədrisi ilə bağlı dərc edilən məqalələrin redaktoru, BSU-nun Azərbaycan dili kafedrasının ali məktəblər üçün hazırladığı eksperimental "Azərbaycan dili" dərsliyinin ixtisas redaktoru və əsas müəlliflərindən biridir. 1991-ci ildən 2007-ci ilə kimi Təhsil Nazirliyinin "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında Azərbaycan dili şöbənin müdiri vəzifəsində çalışmış, jurnalda dilin nəzəri və metodik aspektlərini əks etdirən ayrı-ayrı müəlliflərin məqalələrində A.Məmmədovun bir redaktor kimi dəstxəttini aydın görmək olar. A.Məmmədov jurnalda işlədiyi müddətdə, demək olar ki, hər nömrədə Azərbaycan dili müəllimlərinin qabaqcıl təcrübəsinin yayılmasına ("Bir dərsdən öyrəndiklərimiz", "Bir dərsin uğuru", "Müasir dərs ciddi hazırlıq tələb edir" və s.), Azərbaycan dilinin nəzəri problemlərinə ("Qoşma idarə edirmi?", "Məktəblinin etimoloji lüğəti", "Müəllim nəyə istinad etməlidir?", "Bədiiliyin fonetik səviyyədə ifadəsi", "İstəyirəm sübut edəm ki...", "Dərsliklərdə leksik və qrammatik şəkilçilərin sərhədinə dair", "Nitq hissəsi ilə söz arasında bərabərlik işarəsi qoymaq olarmı?" və s.) dildə nisbətən çətin tədris olunan mövzuların metodikasına ("Qrammatik sual təlimdə vasitə kimi", "Azərbaycan dili dərslərində interaktiv təlim metodları", "Günahkar kimdir?", "Etimoloji xarakterli səhvlər və onların aradan qaldırılması", "Etimoloji təhlil linqvistik təhlilin növlərindən biri kimi" və s.) həsr edilmiş yazıları ilə çıxış etmişdir. Jurnalın ən maraqlı rubrikası olan "Suallara cavab"ı da A.Məmmədov aparmış, ən çox orta məktəb müəllimlərinin qarşısına çıxan nəzəri və praktik çətinliklərdən yaranan suallara ətraflı cavablar vermişdir. "Turan" liseyinin (indiki BSU nəzdində Məktəb-Lisey Kompleksinin) yaranmasında fəal iştirak etmiş, Kompleksin ilk direktor müavini və müəllimlərindən biri olmuşdur. "Mütərcim" ədəbiyyat və tərcümə jurnalının nəşrinə böyük köməklik göstərmiş və ilk məsul katibi olmuşdur".* Bu qeydlər sözün həqiqi mənasında cəmiyyətin mənən zənginləşməsi naminə inadla mübarizə aparan bir ziyalının ömür yolundan müəyyən görüntüləri gözlərimizin önündə canlandırır. Bizim hər birimiz öz əməli fəaliyyətimizdə cəmiyyət üçün hər hansı bir faydalı iş görürüksə, unutmamalıyıq ki, bunun pozulmaz izləri qalır. Bir-birinin arxasınca sadalanan qeydləri, faktları gözlərimizin önündə canlandırarkən Akifin nə qədər fədakar bir ziyalı olduğunu başa düşməyə heç nə mane ola bilmir. O, pedaqoq idi, metodist idi. Bütün gücü ilə yeni nəslin təlim tərbiyəsinə öz həyatını sərf edirdi. Bununla da cəmiyyət qarşısında öz borcunu verməyə çalışırdı. Amma eyni zamanda o, ardıcıl olaraq məktəb, dil problemlərini aşkarlayan, bir çox məsələlərin həlli yolunu göstərən məqalələr yazırdı. Elə "Seçilmiş əsərləri" kitabına da toplanan məhz bu məqalələrdir.

Akifin bütün yazılarının bel sütunu Azərbaycan dili məsələsidir. Bu dilin saflığı uğrunda mübarizə motividir. Ona görə də bir alim kimi onun yazdıqlarının hamısını bütöv bir yaradıcılığın bir-birini tamamlayan fəsilləri kimi də qəbul etmək olar. Dərslikləri, müəllim peşəsinin incəliyi ilə bağlı məsələləri, dilimizlə bağlı hər hansı bir mübahisə doğuran amilləri şərh edən yazıları bu gün də dəyərini itirmir.

Beləliklə, biz Akif Məmmədovu bir alim kimi bu gün də həmin yazılarının özündə görünən canlı obrazı ilə müasirik.

Filologiya sahəsində tanınmış alim olan dosent Akif Məmmədovun özü təbiət etibarı ilə yaradıcı insan idi. Onun maraqlı panfletləri, ədəbi-publisist yazıları da məzmun baxımından çox zəngindir.

XX əsrin son on illiyi təzadlar dövrü kimi həmin mərhələni yaşamış olan insanların yaddaşından heç vaxt silinməyəcək. Ən adi məsələnin üstündə kəskin mübahisələr olurdu. Adamlar xırda bir işin üstündə sanki qruplara ayrılır və qarşı-qarşıya gəlirdilər. Bütün bunlar Akifi narahat edirdi və o, publisist yazılarında həyatın bu cür təzadlı məqamlarına ziyalı mövqeyindən münasibət bildirir, insanları təmkinə, ləyaqətlə polemika aparmaq yoluna səsləyirdi. Onun publisist yazılarının məzmunu mahiyyətcə məhz həyatımın görünən və görünməyən çalarlarına işıq tuturdu. Bu barədə xronikada kifayət qədər məlumat var: *"Akif Məmmədov qələmini publisistika sahəsində də sınamışdır. Cəmiyyət həyatının müxtəlif sahələrinə, o cümlədən daha çox bələd olduğu məktəb, təhsil, maarif sahəsinə aid yazdığı publisist və elmi-publisist məqalələri dilinin aydınlığı, mövqeyinin kəskinliyi və üslub aydınlığı ilə seçilir. XX əsrin 90-cı illərindən başlayan siyasi durumun cəmiyyətdə özünü göstərən neqativ əks-sədası bu yazılarda ustalıqla və bir qədər də satirik dillə təhlil edilir. Yaltaqlıqla mövqe qazanmaq ("Yaltaqlıq"), bütün cəmiyyətə, o cümlədən, nisbətən təmiz qalan orta məktəblərə belə rüşvətin sirayət etməsi ("Orta məktəbdə rüşvət - bu, dövrün bəlasıdır"), müəllimlərin attestasiya-sında yol verilən neqativ hallar ("Gündə bir çıxarır zakonitazə"), islami dəyərlərin orta məktəbə gətirilməsi adı altında boş kompaniyaçılıq ("İslami biliklər məktəbə gəlir. Amma necə?"), özəl ali məktəblərdə tədrisin vəziyyəti ("Təhsildə özəlləşmə. Vəziyyət necədir?") və s. aktual problemlər A.Məmmədovun publisist yazılarının əsas mövzuları olmuşdur. Onlarla dərslik, vəsait və ali məktəb proqramının, yüzdən çox elmi, metodik və publisistik məqalənin müəllifidir. Mətbuatda həyat və fəaliyyətinə aid məqalələr dərc olunmuşdur. 1977-ci ildə ailə həyatı qurmuşdur, iki oğlu, üç nəvəsi var. 11 iyun 2017-ci ildə Bakı şəhərində vəfat etmişdir".* Bəli, insan az və ya çox yaşamasından asılı olmayaraq əgər faydalı işlər görübsə, onun ömrü yalnız cismən qırıla bilər. Həyat mənəvi olaraq onun yaşayan düşüncələrində davam edir.



Professor Telman Vəlixanlı öyrəndiyimə görə Akif Məmmədovla birgə çalışıb. Həm də eyni zamanda dostluq və elmi-ədəbi yaradıcılıq əlaqələrini də davam etdiriblər. Əgər belə demək mümkünsə, professor Telman Vəlixanlının Akif Məmmədovu yaxşı tanımasına heç bir şübhəmiz ola bilməz. Elə ona görə də bu kitaba redaktorluq və ön söz missiyası onun üzərinə düşür. Professor Akif Məmmədovun həm həyatının, həm də yaradıcılığının görünən və görünməyən tərəflərinə yaxşı bələd olduğu üçün qətiyyətlə qeyd edir: "O, MİLLİ DİLÇİLİK VƏ METODİKA MƏKTƏBİNİN LAYİQLİ TƏMSİLÇİSİ, ƏSL PEDAQOQ İDİ". Dəqiq və aydın qənaətdir. Demək, professor Akif Məmmədovu milli dilçilik və metodika məktəbinin ləyaqətli nümayəndəsi kimi qeyd edirsə, bunun üçün kifayət qədər elmi və həyat bilgisi olduğu şübhəsizdir.

Akif milli dilçilik elmimizə öz tədqiqatları ilə dəyərli əsərlər bəxş edib. Eyni zamanda dili öyrətmək, dili tədris etmək və tədqiq etmək xalqın milli ruhunu qorumaq missiyasıdır.

Xələfli xatırlayır ki, Akif açıq təbiətli adam idi. Hətta elmi məqalələrinin məzmununu onu narahat edən problemləri həmfikirləri, yaxud opponentləri ilə müzakirədən qətiyyən çəkinməzdi. Ona görə də yazdığı məqalələrin hamısında sərrast məntiq, aydın düşüncə hakim olurdu. Akif Məmmədovu tanıyanlar onu həm də fədakar və zəhmətkeş bir alim kimi xarakterizə edirlər.

*Davamı 12-ci səhifədə*

# ALİM FƏDAKARLIĞI, ŞƏXSİYYƏT BÜTÖVLÜYÜ,

## *yaxud Akif Məmmədovun "Seçilmiş əsərləri"nə rəylər üzərində düşüncələr*




*Əvvəli 11-ci səhifədə*

Bələlərinin sırasında professor Telman Vəlixanlının səmimi düşün-cələri xüsusilə fərqlənir. O, bu fədakar alimin yaradıcılıq mühitini və həyat tərzini yaxşı bildiyindən elə "Seçilmiş əsərləri"nə yazdığı ön sözdə də onun alim və insan obrazını vəhdətdə götürür və çox səmimi şəkildə dəqiq, real cizgilərlə verə bilir: *"Yaşasaydı, bu il pedaqogika üzrə fəlsəfə doktoru, dosent Akif Məmmədovun 70 illiyini onun öz iştirakı ilə qeyd edərdik. Çox böyük arzuları, elmi, elmi-metodiki planları var idi. Uzun sürən xəstəlikdən bezsə belə, nə universitetdəki elmi-pedaqoji, nə də liseydəki müəllimlik fəaliyyətindən yorulmamışdı. Daim axtarışda, ünsiyyətdə, müzakirələrdə idi. Hər hansı bir dialoqda yönəldici tərəf olurdu. Akif müəllim güclü nəzəri hazırlığı, məntiqi, məsələlərə sərbəst və ayıq yanaşması, emosional və eyni zamanda professional müdaxiləsi ilə yönəldici, izah və şərhedici tərəf təəssüratı bağışlayırdı. 20 ilə yaxın bir müddətdə daim müalicə və məhdudiyyətlər içərisində olsa belə, ömür-gün yoldaşı, tələbəçilikdən həmfikri, sirdaşı, eyni zamanda, opponenti olmuş Sədaqət xanımın, övladları Fuad və Nihadın qayğısı və mənəvi dəstəyi hesabına dilçiliyimizə, ana dilimizin tədrisi metodikasına, məktəbşünaslığa, Azərbaycan dili və ədəbiyyat müəllimləri hazırlığına ciddi töhfələr verə bildi".* Əgər bu qeydlərə diqqət göstərilsə, Akifin ailədə də necə bir səmimi başçı, övladlarına bir ata kimi tələbkar və səmimi olmağını görə bilər.

Ümumiyyətlə, qeydlərdən öyrənirik ki, Akif Məmmədov şəxsən öz həyatına aid olan problemləri heç vaxt kimsə elə bölüşməyi xoşlamayıb. Onun düşüncəsinə görə hər kəs öz ağrı-acısını çəkməyə borcludur. Həyatını yüngülləşdirmək üçün yalnız özünə güvənir, öz zəhmətinə arxalanırmış.

İnsan övladı cəmiyyətin problemlərini öyrənə-öyrənə həm də öz problemlərinin həlli yollarını tapır. Əslinə qalsa, Akif bütün həyatı boyu öz çətinliklərini asan etməyin yolunu öyrənə-öyrənə yaşamışdı. Bunu müasirlərinin xatirələrində, qeyd-lərində asanlıqla duymaq olar. Telman Vəlixanlı da Akif müəllimi bir insan kimi xarakterizə etdikdən sonra onun mükəmməl pedaqoq, fədakar müəllim obrazına xüsusi yer ayırır. Akif müəllim həm elmə, həm də həyata birbaşa öz zəhməti ilə gəldiyindən kimsəyə minnəti olmazdı. Bunu da biz məhz onun haqqında yazılanlardan əxz edə bilirik. Ayrı-ayrı qəzetlərdə, jurnallarda, müxtəlif universitetlərin auditoriyalarında çıxışları və yazıları ilə müəllimlik sənətinin incəliklərini öz yetirmələrinə öyrətmək baxımından onun tayı-bərabəri yox idi.

Belə bir fikir də var ki, hər bir tələbə öz müəlliminə qibtə hissi ilə böyüməlidir. Bunun üçün gərək müəllim bütöv şəxsiyyət olsun. Bacarığı, elmi, nitqi ilə dərs dediyi tələbələrin önündə kimliyini təsdiq edə bilsin. Yalnız bu yolla müəllim tələbələrinin nəzərində ucala bilər və tələbələrində özünə qarşı qibtə hissinin formalaşmasına yol aça bilər. Onun haqqında yazılanlardan öyrənirik ki, tələbələri Akif Məmmədovu sonsuz bir istəklə sevib, onunla həmişə sıx ünsiyyətə can atıblar. Bir sözlə, Akif Məmmədovun mükəmməl müəllim obrazını pedaqoji fikir tariximizin maraqlı səhifələri üçün yaradıcı bir insan olduğunu onu tanıyanların yazdıqları əsasında qavramaq mümkündür. Telman Vəlixanlı yazır: *"Təqdim olunan kitabda yaradıcı müəllim, pedaqoq-alim Akif Məmmədovun məqalə və sair publikasiyalarının bir qismi yer alıb. Onun yaradıcılıq və pedaqoji fəaliyyəti barədə müəyyən təsəvvür formalaşdıran bu yazılarda diqqəti iki cəhət cəlb edir. Bu yazılar, elmi metodiki məqalələr, pedaqoji mülahizələr, tövsiyələr, ayrı-ayrı dilçilik etüdləri, lüğət materialları, müsahibələr, elmi-pedaqoji və müəllimlik fəaliyyətinin qaynar səhifələri sanki Akif müəllimin tərcümeyi-halıdır. Onun ömür və yaradıcılıq yolunun mərhələləri bu yazılardan, kitablarından götürülmüş parçalardan keçir. Biləsuvar (əvvəlki Puşkin adına) rayon Xırmandalı kənd məktəbindən tutmuş, "Turan" liseyi, indiki Bakı Slavyan Universiteti, internat məktəb, Bakı Şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutu, "Azadlıq" qəzeti, "Azərbaycan dili və ədəbiyyatının tədrisi" jurnalınadək ayrı-ayrı maraqlı, rəngarəng, kreativ və diskursiv mühitlər. Akif müəllim bu iş yerlərini özü tapmamışdı. Onu axtarıb sadalanan bu iş yerlərinə, yaradıcılıq və tədris müəssisələrinə dəvət etmişdilər ki, orada işin əsasını qoysun, ona yeni bir məzmun gətirsin, ətrafına mahir pedaqoqlar, mütəxəssislər toplasın, lazımi rəy formalaşdırsın. İkincisi, onun elmi-pedaqoji irsi və praktik pedaqoq kimi düşüncələri bu gün də öz aktuallığı itirmir, dil və ədəbiyyat müəllimləri üçün metodiki tövsiyə və istinad yeri kimi əhəmiyyətli görünür. Ona görə də ciddi elmi-pedaqoji hazırlığa və bazaya malik müəllif kimi Akif müəllimin istər elmi-metodiki məqalələrinin, istər lüğət materiallarının, istərsə də test tapşırıqlarının müəllim, tələbə və şagirdlərin yeni nəsillərinin istifadəsinə verilməsi əhəmiyyətlidir".* Azərbaycanın maarifçilik həyatı, pedaqoji mühiti ayrı-ayrı tədqiqatçı, yaradıcı müəllimlərin təfəkkür məhsulları ilə zənginləşir. Biz Akif Məmmədovun Azərbaycan dilinin tədrisi ilə bağlı problem yazılarının mahiyyətinə varmaqla onun təkbaşına bir tədqiqat institutunun kollektivi qədər iş gördüyünün şahidi oluruq. Onun pedaqoji fəaliyyət yolu orta ümumtəhsil məktəblərindən başlayıb, müxtəlif təhsil ocaqlarından keçib. Liseylərdən, orta ixtisas məktəb-lərindən, nəhayət, tədqiqat institut-larından və əlbəttə, ali məktəblərdən keçən bu yol onun pedaqoji sahədəki uğurlarının yolu kimi xarakterizə oluna bilər. Akif bir an da olsun, tədris sahəsindən kənarda qalmayıb. Özü də onun yazılarına diqqət edəndə məlum olur ki, o tədris prosesindəki bütün problemlərdən tam xəbərdardır və illər ötdükcə bu problemlərin həll olunmamasından həmişə narahatlıq keçirib. Elə professor Telman Vəlixanlı da diqqəti məhz onun bu sahəyə dair məqalələrinə yönəltməklə oxucunun diqqətinə bir əsas məsələni də çatdırır; Akif Məmmədov məqalələrinin başlığına məhz problemin məğzini çıxara bilirdi, bununla da hər kəsə təlqin edirdi ki, nəyə, hansı sahəyə daha çox diqqət göstərmək lazımdır.

Doğma dili sevən bir alim kimi dilimizin inkişafında həyatımızda mövqeyimizin təmin olunmasında kütləvi informasiya vasitələrinin və xüsusilə radionun, televiziyanın fəaliyyətinə də Akif ayrıca diqqət yetirirdi. O, ayrı-ayrı məqalələrində radio, televiziya aparıcılarının mədəniyyətini necə, hansı səviyyədə qorumalarını izləyir. Dilimizin saflığı uğrunda mübarizədə onlara məsuliyyət hissinin aşılanması üçün çox dəyərli məqalələr yazırdı. Bu barədə də professor Telman Vəlixanlının fikirləri maraqlıdır: *"Bu cəhətdən Akif Məmmədovun "Azərbaycan dili və ədəbiyyatı tədrisi" ("Ana sözü") jurnalı, "Azadlıq" qəzeti səhifələrində tədris məsələləri ilə bağlı məqalələri, publisistik qeydləri böyük maraq doğurur. Onun moderatorluğu ilə 1993-cü ildə böyük dilçi-alimlərimiz və pedaqoqlarımız Əziz Əfəndizadənin, Bəşir Əhmədovun və başqalarının iştirakı ilə "Ana sözü" jurnalının redaksiyasında "Günahkar kimdir və ya dilimizi niyə öyrədə bilmirik?" adı altında təşkil olunmuş müzakirələrə verdiyi girişdə səslənən fikirlər (ön söz) bu gün də aktuallığını itirməyib: "Yolum Bakı məktəblərinin birinə düşmüşdü. Rus bölməsinin XI sinifində Azərbaycan dili dərsini müşahidə etməli oldum. Şagirdlərin dərsə laqeyd münasibəti, milliyyətcə azərbaycanlı olanların belə doğma (doğrudanmı doğma) dildə sözlərin qol-qabırğasını sındıra-sındıra danışması məni kədərləndirdi. Məsələnin mənəvi tərəfini bir qırağa qoyub, qeyri-ixtiyari olaraq özlüyümdə belə bir statistik hesablama apardım: axı bu şagirdlər sinifdən asılı olaraq həftədə iki və ya üç saat Azərbaycan dili dərsi keçirlər. Deməli, orta məktəbdəki təhsil illərində nə az, nə çox hər uşağın düz 800-850 saat vaxtı birbaşa dərs saatına gedir. Hələ ev tapşırıqlarının icrasına, sinifdənxaric tədbirlərin keçirilməsinə ayrılan, sərf olunan saatları demirəm. Bu qədər vaxt niyə havaya sovrulur? Günah kimdədir? Yaşadığı respublikanın dövlət dilinə barmaqarası baxan şagirddəmi? Fənnin tədrisində istənilən səviyyəyə nail ola bilməyən müəllimdəmi? Evdə, ailədə uşaqlarına Azərbaycan dilində danışmağı qadağan eləyən valideynlərdəmi? Radioda, televiziyada "gözəl" nitqi ilə balalarımıza şəxsi nümunə olan millət başbilənləri - əmilər, xalalardamı?..".* Akif müəllim Azərbaycan dilinin fəaliyyət statusunun möhkəmlənməsi, Azərbaycana investisiya axını ilə gələn əcnəbilərin bu dilə hörmətlə yanaşması üçün də mübarizə aparır. Bu sahədə də yorulmadan çalışırdı. Bunun üçün məqalələr yazır, düşüncələrini kağıza köçürür, ən başlıcası, Azərbaycana gələn əcnəbi gənclərin Azərbaycan dilini daha mükəmməl öyrənmələri üçün yollar təklif edirdi. Bunun üçün o göstərirdi ki, orta ixtisas və ali məktəblərdə əcnəbilərə ayrıca kurslar təşkil edilməlidir. O həmişə deyirmiş ki, əgər biz dilimizi əcnəbilərə sevdirə bilsək, daha doğrusu yaxşı öyrədə bilsək, onlar Azərbaycanı da sevə biləcəklər.

*Davamı 13-cü səhifədə*

Əvvəli 12-ci səhifədə

Zənnimcə, doğru qənaətdir. Xarici diaspor təşkilatları Azərbaycanı tanıtmaq üçün birinci növbədə dilimizin təbliğindən başlamalıdırlar. 44 günlük müharibədən sonra məlum oldu ki, Avropa ölkələri Ermənistana xüsusi tərəfkeşlik göstərir. Hətta yersiz vəkillik də edirdilər. Ermənilərin uydurduğu tarixlə bağlı faktlar gətirir, müxtəlif saxta mənbələri doğru sənədlər kimi təqdim edirdilər. Bunun hamısı erməni diasporunun fəaliyyəti ilə bağlıdır. Deməli, onlar Ermənistanı xaricdə kifayət qədər hiyləgərliklə və bacarıqla təbliğ edə biliblər. Zənnimizcə, Akif Məmmədov kimi alimlərin yazılarını pedaqoji-humanitar fakültələrdə, müvafiq ali məktəblərdə dərslik kimi öyrənmək, onun qaldırdığı problemlərin hamısını iş prosesində həll oluna biləcək istiqamətdə şərh etməlidirlər.

Əlbəttə, zaman keçdikcə həyat dəyişir. Dilimiz də dəyişir, inkişaf edir. Amma elə problemlər var ki, bunlar yenə qalır. Xüsusilə Azərbaycana indi xarici turist axınının genişləndiyi bir vaxtda dilimizin təbliği çox mühüm məsələlər kimi qarşımızda durur.

Professor Telman Vəlixanlı doğru olaraq qeyd edir ki, alimlərin konfranslarda, mətbuatdakı çıxışlarında dilimizin yayılma arealı ilə bağlı təkliflər verilir. Gərək alimlər xüsusi səy göstərsinlər ki, bu təkliflər kağız üzərində qalmasın: rəhbərliyini Akifin bəxtinin gətirməsi kimi xarakterizə edir. Zənnimcə, bu da çox dəyərlidir. Çünki yeni nəsillər üçün belə örnəklər çox vacibdir: *"Akif müəllim böyük məktəb keçmişdi. Bəxti gətirmişdi ki, Bakıya alimlik dalınca gəldikdə, professor Bəşir Əhmədovun yetirməsi olmaq xoşbəxtliyi ona nəsib olmuş, 90-cı illərin sonu - 2000-ci illərin əvvəllərində "Azərbaycan dili və ədəbiyyatın tədrisi" kimi müəllimlər üçün vacib bir elmi-metodiki kürsünün əsas yükünü çiyinlərinə götürən alimlərdən biri olmuşdu. O, ömrünün sonunadək çalışdığı kafedraya (hazırki adı: BSU-nun Müasir Azərbaycan dilçiliyi kafedrası) da yeni nəfəs gətirə bilmişdi. Sonradan o, həmkarı dosent Şaban Qaralovla birgə üzərində işlədikləri "Etimoloji lüğət"dən nümunələri "Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnalında dərc etdirəcəkdi. Professor Bəşir Əhmədovun, dosent Şəhla Əhmədovanın müəllif-tərtibçiliyi ilə işıq üzü görəcək "Etimoloji etüdlər"in, "Azərbaycan dilinin etimoloji lüğəti"inin materiallarına, illustrasiyalara, etimoloji lüğət ideyasına mən ilk dəfə Akif müəllimin yazılarında rast gəlmişdim. Onun dissertasiyası da bu mövzuda olmuşdur".* Qeydlərdən də göründüyü kimi Akif çox məhsuldar işləyib. Həm dil tədqiqatları aparıb, metodik vəsaitlər hazırlayıb, etimoloji lüğətlər üzərində də çalışıb, bir sözlə, bütün düşüncəli həyatını xalqın maariflənməsinə sərf edib.

Bu günlərdə Akif Məmmədovun dostu Əli Rza Xələflinin "Xəzanda yaz gülləri" adlı poeması nəşr olunub. Həmin kitabda bir fəsil "Akif və Sədaqət hekayəti" adlanır. Poemadan bir parça:

Tələbəlik dövrümün yadigarı dostlarım,
İndi də yaddaşımda çiçəklənən baharım.

Görkəmli alim idi, yolu düz, məramı düz,
Varlığı işıq idi, Akifin qəlbi gündüz.

Akifin, Sədaqətin sayəsində oxudu,
Anar həyat yolunu o məktəbdə toxudu.

Akifi tez itirdik, ayrılıq aldı bizdən,
Biz dostluq xatirəsi yadigar qaldı bizdən.

Təəssüf ki, həyatda az deyil ayrılıqlar,
Yarası sinəmizdə göynəyən sayruluqlar.

Akifdən dünya qalıb... əsərləri yaşayır,
Qəlbinin atəşini oğulları daşıyır.

Sədaqət əziz tutur hörmətini, adını,
Əmin-əmanət bilir, yaddaşını-yadını.

Oğulları Fuadla, Nihadla öyüncü var,
Ananın özünə də oğultək güvənci var.

# ALİM FƏDAKARLIĞI, ŞƏXSİYYƏT BÜTÖVLÜYÜ,

## *yaxud Akif Məmmədovun "Seçilmiş əsərləri"nə rəylər üzərində düşüncələr*

*"Üstündən illər keçsə də, təəssüf ki, biz hələ də dilimizi təlim əcnəbi dillərdə aparılan məktəb və siniflərdə, ali məktəblərdə lazımi səviyyədə tədris edə bilmirik. Məsələnin həlli üçün lazımi təşkilati-metodiki məsələləri həll edə bilməmişik. Dəfələrlə mətbuatdakı və elmi konfranslardakı çıxışlarımızda, müvafiq komissiyaların işində qeyd etmişik ki, müstəqil dövlətə, geniş yayılma arealına, böyük diaspora və 40-50 milyon əhaliyə, ən nəhayət, əcnəbilər üçün cəlbedici əmək bazarına malik bir dilinin səmərəli şəkildə öyrədilməsi üçün ali təhsilin bütün səviyyələrində uyğun ixtisas və ixtisaslaşmalar təklif olunub, əvvəlcə bakalavriat səviyyəsində ixtisasların təsnifat cədvəlinə daxil edilməlidir. Nə qədər ki, bu, yoxdur, biz nə adekvat tədris resursları yarada biləcək, nə də istər ölkədə, istərsə də ölkədən kənarda müasir standartlara əsaslanan metodika ilə dilimizi tədris və təbliğ edə biləcəyik".* 44 günlük müharibədən sonra Azərbaycan dili ilə bağlı məsələlər beynəlxalq arenada da öz kəskinliyi ilə qabarıq göründü. Azərbaycan prezidenti 40 mindən çox soydaşımızın o tayda dilindən, məktəbindən, yəni bir sözlə, əsl insani hüquqlarından məhrum olması bizi düşündürməlidir. Elə buna görə də Akif müəllimin yazdığı məqalələrin xüsusilə seçmə nümunələri müəllimlər üçün dərs vəsaiti kimi çap olunub müxtəlif yollarla maarif işi aparan soydaşlarımıza çatdırılmalıdır.

Ümumiyyətlə, ali məktəblərdə dilin səmərəli şəkildə öyrədilməsi üçün ixtisaslaşmaların aparılması xüsusi mütəxəssis rəyi kimi diqqətdə saxlanılmalıdır. Bunun üçün fədakar alimlərin düşüncə məhsulları əsas fikir bazası olaraq istifadəyə çox münasibdir. Bu mənada məhz Akif Məmmədovun seçilmiş əsərlərinin nəşri çox dəyərlidir.

Biz yuxarıda qeyd etdik ki, Akif müəllimin elmi rəhbəri Bəşir Əhmədov çox qədirli, prinsipial bir alim idi. Onun mübarizəsi sözün həqiqi mənasında Azərbaycan uğrunda mübarizə idi. Məhz Akif belə bir alimin yetirməsi olaraq formalaşmışdı. Professor Telman Vəlixanlı Bəşir Əhmədovun elmi

Telman Vəlixanlı doğru olaraq qeyd edir ki, etimoloji lüğət ideyasını məhz Akif Məmmədovun səsləndirməsi son nəticədə çox vacib olan bir əməli işlə başa gəldi.

A.Məmmədovun "Seçilmiş əsərləri"nin nəşri təkcə məqalələrdən ibarət deyil, həm də burada çox maraqlı ideyalar verilib. İndi həmin ideyalar üzərində daha geniş tədqiqat aparmağın vaxtıdır.

Professor Telman Vəlixanlı qeydlərinin sonunda yenə A.Məmmədovla insani ünsiyyət məsələsinə toxunur. Onunla dostluq etməyin dəyərini xüsusilə vurğulayır. Bu da onu göstərir ki, Akif yaradıcı insan olaraq yalnız tədqiqata qapanıb qalmır, öz ünsiyyəti ilə də dövrünün örnəyi olaraq tanınırdı. Bu baxımdan Teymur Vəlixanlının qeydlərinin sonu da çox dəyərlidir: *"Sonda onu da qeyd etmək istəyirəm ki, bu səmimi və doğma insanla aramızda xüsusi bir bağlılıq və mehribançılıq var idi. Bizi mərhum professor, prinsipial mövqeyi və nüfuzlu alim-pedaqoq rəyi ilə tanınan Bəşir Əhmədov tanış eləmişdi. Hətta qohum çıxdıq, bizi həm də xasiyyət, şəxsi və ailəvi dostluq, yaradıcılıq əlaqələri yaxınlaşdırdı. Son günədək təşkilinin ilk vaxtlarından yanımda olduğu liseylə (məktəb-lisey), "Mütərcim" nəşriyyatı və yumalı ilə əlaqəni kəsmədi, məktəb liseydə dil-ədəbiyyat müəllimlərinə hamilik elədi, şux zarafatları, qayğıkeş və xeyirxah münasibəti ilə həmkarlarının yaddaşında qaldı. Əzizləri, dostları, müəllim yoldaşları, şagird və tələbələri, on minlərlə oxucusu bu gün də təhsilimizi, dilçilik və pedaqogika elmimizi vaxtsız tərk etmiş gözəl insan dosent Akif Məmmədovu işıqlı xatirələrlə yad edir. Kitabın ərsəyə gəlməsində böyük zəhmət çəkmiş ailəsinə və övladlarına dostları və həmkarları adından minnətdarlığımı bildirirəm".* Mən də burada deyilənlərin ümumi məğzini yekunlaşdırarkən qeyd etmək istərdim ki, Akif Məmmədovun sağlığında onun haqqında, onun yaradıcılığını xarakterizə edən çoxlu müəllif yazıları var. Məhz həmin yazıları da bir yerə toplamaq və ayrıca kitab halında nəşr etmək gələcək nəsillər üçün Akif Məmmədovun əsl ziyalı obrazının tamlığı, bütövlüyü təmin olunardı.

Unudulmaz dünyada hünər, dəyanət yolu,
Lerikdən Qarabağa Akif - Sədaqət yolu.

Əziz dostlar, qəlbimdə əbədi yeriniz var,
Cəbrayıllı günlərdə payınız, vəriniz var.

Cəbrayıl çinarları Akifi unutmazlar,
Sevgi dolu ruhunu yaşadar, unutmazlar.

Gəzdiyimiz yerləri ruhuma çəkməyim var,
Akifin adına da bir çinar əkməyim var.

Akif Sədaqət andı, yaddaşımda oyandı,
Cəbrayıllı günlərin güllərinə boyandı.

Yaşayar nəsil-nəsil bu hekayət özümlə,
Gələcək nəsilləri görərəm öz sözümlə.

Yeri gəlmişkən deyim ki, həmin kitabı mən nəşr etdim, həmin fəsli də çox diqqətlə oxudum. Cəmiyyətə, doğmalarına, dostlarına sədaqətli insan obrazını həmin əsərdə görmək məndə xüsusi bir fərəh hissi doğurdu. Deməli, insanlar asanlıqla unudula bilməz. Onların əməlləri, həyatda gördükləri işlər heç vaxt yaddan çıxmır. Gələcək nəsillər məhz belə insanların xoş xatirələri əsasında tərbiyə olunurlar.

Mən "Akif və Sədaqət hekayəti" adlı həmin əsər üzərində də düşüncələrimi qələmə almaq fikrindəyəm. Akif müəllim və onun həyat yoldaşı Sədaqət xanım Azərbaycanın ayrı-ayrı bölgələrindəndirlər. Akif müəllim leriklidir (o, bu dağlıq rayonun Züvüc kəndində doğulub böyümüşdü), Sədaqət Qabil qızı isə Qarabağlıdır, Füzuli rayonunun Qarakollu kəndindəndir. İnsanların mənən doğmalığı, onların birliyi üçün əsas olur.

Birlik, bütövlük insan təbiətinin ən ali keyfiyyəti kimi unudulmur, yaddan çıxmır.

**03.05.2024**